**2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar vətəndaşlar Rövşən Dəmirov, Ələkbər Əliyev və digərlərinin 7 yanvar 2010-cu il tarixli 585 saylı müraciətinə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının**

# Q Ə R A R I

2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar 30 saylı Suraxanı birinci seçki dairəsinin Hövsan bələdiyyəsi üzrə namizədləri Rövşən Dəmirov, Ələkbər Əliyev və digərləri Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına ərizə ilə müraciət edərək, səsvermənin gedişində, səslərin hesablanmasında və nəticələrin rəsmiləşdirilməsində 4, 5, 7, 8, 9, 11, 12, 13, 14 və 17 saylı seçki məntəqələrində yol verilmiş qanun pozuntuları barədə dairə seçki komissiyasına müraciət etdiklərini, lakin bu günə qədər heç bir cavab verilmədiyini göstərərək dairə seçki komissiyasının qanunsuz hərəkətsizliyindən şikayət edərək müvafiq qərar qəbul edilməsini xahiş etmişlər.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən araşdırılaraq bu barədə müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Mərkəzi Seçki Komissiyası müraciəti qanunla müəyyən olunmuş müddətdə, tam, hərtərəfli, obyektiv və qərəzsiz araşdırmışdır.

Araşdırma nəticəsində əldə olunmuş sübutlardan görünür ki, Hövsan bələdiyyəsi üzrə namizədlər Rövşən Dəmirov, Ələkbər Əliyev və digərlərinin qeyd edilən qanun pozuntuları barədə dairə seçki komissiyasına daxil olmuş şikayəti müəyyən edilmiş qaydada qeydə alınmış, dairə seçki komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü tərəfindən araşdırılaraq rəy verilmiş və dairə seçki komissiyasının iclasında baxılaraq 28 dekabr 2009-cu il tarixli 36/03 saylı müvafiq qərar qəbul edilmişdir. Qəbul edilən qərarın şikayətçilərə çatdırılması barədə qanuna uyğun tədbirlər götülmüşdür.

Beləliklə də, 30 saylı Suraxanı birinci seçki dairəsinin dairə seçki komissiyasının hərəkətsizliyi ilə bağlı irəli sürülmüş iddialar öz təsdiqini tapmamışdır, ona görə də müraciət əsassız hesab edilərək təmin edilməməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən **q ə r a r a a l ı r :**

1. Vətəndaşlar Rövşən Dəmirov, Ələkbər Əliyev və digərlərinin 7 yanvar 2010-cu il tarixli 585 saylı müraciəti əsassız olduğundan təmin edilməsin.

2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

Sədr Məzahir Pənahov

Katib Natiq Məmmədov

| | |
|---|---|
| Üzvlər | Fuad Cavadov |
| | Ramiz İbrahimov |
| | Validə Kazımova |
| | Qabil Orucov |
| | Tofiq Həsənov |
| | İlham Məmmədov |
| | Nizami Nadirov |
| | Azər Tağıyev |
| | Tamam Cəfərova |
| | Rövşən İsmayılov |
| | Oktay Hümbətli |